# ADA Universitetində 11-ci beynəlxalq festival keçirilib

İyunun 9-da ADA Universitetinin Beynəlxalq əlaqələr şöbəsi və Universitetin Fondunun (Azərbaycan) dəstəyi, eləcə də "OCAQ" Teatr Cəmiyyəti, "Topçubaşov" adına beynəlxalq təqaüd proqramı və "ESN ADA Baku" tələbə klublarının birgə əməkdaşlığı çərçivəsində 11-ci beynəlxalq festival keçirilib.











AZƏRTAC xəbər verir ki, festivalda təmsil edilən 33 ölkənin nümayəndələri adət və ənənələrini, mətbəxlərini nümayiş etdiriblər. Həmin ölkələrin sırasında ABŞ, Fransa, İngiltərə və digər Avropa ölkələrini, Kolumbiya, Kuba və digər Latın Amerika ölkələrini, eləcə də İsrail, Türkiyə, Yaponiya, həmçinin Qazaxıstan və Türkmənistan da daxil olmaqla digər Mərkəzi Asiya ölkələrini qeyd etmək mümkündür.

Beş yüzdən çox iştirakçının qoşulduğu festivalda yerli və xarici tələbələrlə yanaşı, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndəlikləri də iştirak ediblər.

Festivalın təşkilində fəal iştirak edən "ESN ADA Baku" klubu tərəfindən viktorina sessiyaları keçirilib. İştirak edən ölkələrin arasından 14-ü konsert proqramı ilə çıxış edib.

ADA Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Milana Mirfeyzullazadə bildirib ki, bu tədbir ADA Universitetindəki multikultural mühitin ifadəsidir.

ADA Universitetində təhsil alan və ABŞ-ni təmsil edən Mətyu Qarnet bu beynəlxalq mühitin bir parçası olmaqdan məmnunluğunu ifadə edib. Latviyalı tələbə Elizabet Nəsibova ADA Universitetində təkcə təhsil almaqla deyil, həmçinin burada keçirilən beynəlxalq tədbirlərdə iştirak etməklə geniş dünyagörüşü qazandığını qeyd edib.

Azərbaycan. - 2023.- 10 iyun.- S.12.